# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №08 (7497) | 1 avqust 2021-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|




## Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçilməsinin 52-ci ildönümünə həsr olunmuş ümumşəhər tədbir



**Tədbirdə iştirak edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, şura üzvləri, Milli Məclisin deputatı İltizam Yusifov, hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimai-siyasi qurumların nümayəndələri öncə Ümummilli Lider Heydər Əliyevin şəhərin Mərkəzi meydanında ucalan abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri qoyaraq əziz xatirəsinə dərin ehtiramlarını ifadə etmişlər. Sonra Şirvan şəhər Heydər Əliyev Mərkəzində Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, dövlətimiz, xalqımız qarşısında tarixi xidmətlərindən, Şirvan şəhərinə səfərindən bəhs edən eksponatlarla tanış olublar.**

Heydər Əliyev Mərkəzində keçirilən ümumşəhər tədbirində çıxış edən Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 14 iyul 1969-cu ilin Azərbaycan xalqının həyatında mühüm əhəmiyyət kəsb etdiyini, həmin tarixi gündə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçildiyini bildirdi. Ulu Öndər Heydər Əliyevin 1969-cu ilə qədər dövlət təhlükəsizliyi orqanlarında müxtəlif vəzifələrdə çalışdığını, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəldiyini, həmin Komitənin milliyətcə ilk azərbaycanlı generalı olduğunu vurğuladı. 1969-cu il iyulun 14-də Azərbaycan KP MK plenumunda Heydər Əlirza oğlu Əliyevin respublika rəhbəri seçilməsi ilə ölkəmizin tarixində keyfiyyətcə yeni bir mərhələnin başlandığını qeyd etdi. Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən uca tutduğunu, böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdığını, İttifaq dövləti tərkibində ölkəmizin xalq təsərrüfatının hərtərəfli yüksəlişinə, o cümlədən Şirvan şəhərində yeni sənaye müəssisələrinin tikintisinə nail olduğunu bildirdi. Ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik, quruculuq siyasətinin bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini, müasir, müstəqil Azərbaycan dövlətinin Heydər Əliyevin şah əsəri olduğunu qeyd etdi. Tədbir iştirakçılarını bu tarixi gün münasibətilə təbrik edərək müstəqil dövlətimizin inkişafına xidmət edəcək fəaliyyətlərində uğurlar arzu etdi. Sonda tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin fəaliyyətindən bəhs edən "Millət atası" sənədli filminə tamaşa etdilər.

**Şirvan şəhərinin qəhrəman oğlu, Vətən müharibəsinin şəhidi Ramil Vüqarəddin oğlu Əliyevin yaşadığı binanın həyətində xatirə lövhəsinin açılışı olub. Öncə Şirvan Şəhər İcra Hakimiyyətinin, şəhər Bələdiyyəsinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər Şöbəsi-**



## Şəhid Ramil Əliyevin xatirə lövhəsi açılıdı

**nin, Şirvan Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin, Gənclər və İdman İdarəsinin, Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinin nümayəndələri, şəhid ailələri, şəhidin döyüş yoldaşları, dostları Ramil Əliyevin Şəhidlər Xiyabanında uyuduğu məzarını ziyarət etdilər. Məzarı önünə gül dəstələri düzüldü, ruhuna dualar oxundu.**

Sonra tədbir iştirkaçıları Ramil Əliyevin xatirə lövhəsinin açılışında iştirak etdilər. Öncə Dövlət himni səsləndirildi. Açılışda çıxış edənlər Ramil Əliyevin şərəfli həyat yolundan danışaraq onunla bağlı əziz xatirələrini bölüşdülər. Qeyd olundu ki, şəhid Ramil Əliyev Şirvan şəhəri Nofəl Quliyev adına 9 nömrəli tam orta məktəbi bitirdikdən sonra Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinə qəbul olmuşdur. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər Şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmış, Bakı şəhəri N saylı hərbi hissəsində manqa komandiri kimi xidmət etmiş, snayper, minamiyotçu olmuşdur. İslam dininə, Allahın birliyinə və böyüklüyünə inanan Ramil inancını həyat tərzinə çevirmişdi. Dəfələrlə Kərbəla və Məşəd şəhərlərinə ziyarət etmiş, bir müddət Şirvan şəhərini təmsil edən zəvvarlara rəhbərlik etmişdir. 2020-ci ilin iyul ayında cəbhənin Tovuz istiqamətində erməni hərbi birləşmələrinin növbəti təxribatı nəticəsində general Polad Həşimov başda olmaqla Azərbaycan Ordusunun bir qrup hərbiçisinin şəhid olması xəbərindən hər kəs kimi Ramil də hiddətlənmiş, könüllü olaraq orduya yazılmışdır. Sentyabrın 29-da Vətəni qorumaq, şəhidlərin qisasını almaq arzusuyla Ramil də cəbhəyə yola düşmüşdü. Düşməni xeyli sayda itkilərə məruz qoysa da sonuncu mühasirədən çıxa bilməmişdir. 24 yaşında şəhidlik zirvəsinə yüksələn Ramil Vüqarəddin oğlu Əliyev noyabrın 5-də Şəhidlər Xiyabanında böyük izdihamla dəfn olunmuşdur. Döyüş meydanında göstərdiyi igidliyə və şücaətə görə dövlət başçısı tərəfindən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarına layiq görülmüşdür.

Sonra Ramil Əliyevin vaxtilə təhsil aldığı 9 nömrəli tam orta məktəbin şagirdləri Vətənə, torpağa, şəhidlərə həsr olunmuş şeirlər səsləndirdilər.

Tədbirin sonunda Ramilin anası Xuraman xanım və bacısı Gülşən xanım xatirə lövhəsini açdılar. Tədbir iştirakçıları xatirə lövhəsinin qarşısına tər qərənfillər düzdülər.

## Şirvan Şəhər İcra Hakimiyyəti başçısının 25 iyun 2021-ci il tarixli 95 nömrəli sərəncamından çıxarış

### Şəhər üzrə meşə fondu ərazilərində yanğınların baş verməməsi üçün müvafiq tədbirlərin görülməsi məqsədilə xüsusi qərargahın yaradılması haqqında

Şirvan Şəhər inzibati ərazi vahidliklərində taxıl zəmilərinin və otlaq sahələrinin olmamasını nəzərə alaraq, şəhər üzrə meşə fondu ərazilərində yanğınların baş verməməsi üçün müvafiq tədbirlərin görülməsi məqsədi ilə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununu, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri cənab Zeynal Nağdəliyevin 24.06.2021-ci il tarixli məktubunu və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.15.9.2.-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şirvan şəhər İcra Hakimiyyəti yanında şəhər üzrə meşə fondu ərazilərində yanğınların baş verməməsi üçün müvafiq tədbirlərin görülməsi məqsədi ilə aşağıdakı tərkibdə xüsusi qərargah yaradılsın:

**Qərargahın rəhbəri:**

İlqar Abbasov -İcra Hakimiyyətinin başçısı

**Qərargahın üzvləri:**

Orxan İbrahimov - Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini

Hikmət Quliyev - Şirvan Şəhər Polis Şöbəsinin rəisi

Fuad Məmmədov - Şirvan Şəhər Prokuroru

Bəhruz Quliyev - Şirvan Şəhər İcra Hakimiyyəti başçısının 1 nömrəli Sahə İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi

Bakıxan Nəsirov - "Şirvan Regional Elektrik Şəbəkəsi "MMC-nin direktoru

Nizami Rəhimov - İcra Hakimiyyəti başçısının Bayramlı qəsəbə İnzibati ərazi vahidi üzrə nümayəndəsi

Tərlan Muradov - İcra Hakimiyyəti başçısının Hacıqəhrəmanlı qəsəbə İnzibati ərazi vahidi üzrə nümayəndəsi vəzifəsini müvəqqəti icra edən

Kürdoğlu Muradov - Şirvan Bələdiyyəsinin sədri

Samirə Abışova - Hacıqəhrəmanlı Bələdiyyəsinin sədri

Ramil Şıxəliyev - Şirvan Yanğından Mühafizə Dəstəsinin rəisi

Mansur İmanov - Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin böyük inspektoru

Kənan Kərimli - 3 saylı Regional Ərazi Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi

Nazim Hüseynov - Şirvan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru

Nazim Səfərov - Əmlak Məsələləri Dövlət Xidmətinin Şirvan Ərazi Şöbəsinin rəisi

Dadaş Fərzəliyev -Kommunal Kombinatı Müəssisəsinin rəisi

Azər Abdıyev -Yaşıllaşdırma Təsərrüfatı İdarəsinin rəisi

2. Qərargah işini "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 10 iyun 1997-ci il tarixli Qanununa və bu sahəni tənzimləyən digər normativ hüquqi aktlara uyğun təşkil etsin.

3. Qərargah meşə yanğınlarına qarşı mineral zolaqların çəkilməsi, məişət və sənaye tullantılarının həmin ərazilərə atılmaması barədə əhali arasında geniş izahat işlərinin aparılmasını, təhlükəsizlik tələblərini pozan şəxslər barədə qanunvericiliklə müəyyən edilmiş tədbirlərin və digər zəruri təxirəsalınmaz işlərin görülməsini təmin etsin.

## Milli Mətbuat günü qeyd edildi



**Zəngin tarixi ənənələrə malik Azərbaycan mətbuatının 146-cı ildönümü ilə əlaqədar Şirvan şəhərində tədbir keçirildi.Tədbiri Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Aynur Fərzəliyeva açaraq öncə tədbir iştirakçıları olan jurnalistləri, mətbuat işçilərini Milli Mətbuatın yaranma günü və peşə bayramları münasibətilə təbrik etdi.**

Çox zəngin və şərəfli inkişaf yolu keçmiş Azərbaycan Milli Mətbuatının əsasını böyük maarifçi Həsən bəy Zərdabi tərəfindən qoyulduğunu, onun rəhbərliyi ilə 1875-ci ilin iyul ayının 22-dən başlayaraq "Əkinçi" qəzetinin nəşr edildiyini bildirdi. Qeyd etdi ki, Azərbaycan Milli Mətbuatı yarandığı gündən həmişə qabaqcıl idealların carçısı olmuş, dövrün, zamanın, ictimai-siyasi həyatın güzgüsünə çevrilmiş, milli şüurun, yeni ideallların formalaşmasında və mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Məhz buna görə də Ulu öndərimiz, Ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərliyi dövründə milli mətbuatımıza həmişə diqqət və qayğı ilə yanaşmış, onun inkişafına mane olan məhdudiyyətləri aradan qaldırmışdır. 1998-ci ilin avqust ayının 6-dan senzura ləğv edilmiş, qəzet və jurnalların sayı, dövriyyəsi artmış, maddi-texniki bazası möhkəmlənmişdir. Bu gün də mətbuata münasibətdə Heydər Əliyev siyasəti və ənənələri möhtərəm Prezidentimiz cənab İlham Əliyev və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Jurnalistlərə sistemli dövlət qayğısı ölkəmizdə və şəhərimizdə sosial ədalət və şəffaflığın təmin edilməsinə xidmət edir.

Sonra şəhər icra hakimiyyətinin məsul işçisi A.Hüseynov mətbuatımız bu gün və jurnalistlərin qarşısında duran vəzifələrdən danışdı.

Tədbirdə çıxış edənlər – "İŞIQ" qəzetinin baş redaktoru F.Rəhimov, fəal yazarlar F.Səlimov, A.Rzayev və başqaları şəhərdə fəaliyyətlərinə yaradılan şəraitə, əməkdaşlığa və onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını və təşəkkürlərini bildirdilər.

# Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi

**"Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur".**

Böyük siyasətçi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev bu sözləri 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında söyləyib.Ulu öndər Heydər Əliyev hər zaman bu iki dövlət arasında olan münasibətlərin daha da möhkəmləndirilməsi sahəsində bütün mühüm addımları atmış, onun parlaq siyasətini davam etdirən İlham Əliyev də Azərbaycanın işıqlı gələcəyi üçün bu sahədə xeyli irəliləyiş əldə etmişdir.

Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir" və Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi qəbul edilməkdədir.

Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır.Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyrinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi.

Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyənin mənəvi-siyasi dəstəyi xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bu sahədə səylərin artırılmasının zəruriliyini göstərən ən gözəl nümunədir. Eyni zamanda, Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti regionda sülhün bərqərar olunmasının təsirli mexanizmi kimi diqqət çəkir.

2021-ci il iyunun 15-i Azərbaycan tarixində əlamətdar gün kimi qalacaq. Tariximizdə ilk dəfə olaraq Azərbaycan lideri xarici dövlətin başçısını Qarabağda qarşıladı. Bizim üçün mühüm mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, sözsüz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu.

Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Biz tarixin təkrarlanmasının və oxşar hadisələrin yenidən baş verməsinin şahidiyik. İndi də bölgə uğrunda ABŞ, Rusiya, Britaniya, Fransa, İran kimi dövlətlərin açıq mübarizəsi müşahidə olunmaqdadır. Lakin bu dəfə fərq ondan ibarətdir ki, hadisələr Azərbaycanın xeyrinə və maraqlarına uyğun cərəyan edir. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycan dövlət başçısı hər kəsin yadına Qars müqaviləsini saldı. O qeyd etdi: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır". Bu sənədlə ümumi maraqların qorunmasında imkanların birləşdirilməsi, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi hər iki ölkənin regional və beynəlxalq rolunu və çəkisini artıracaq.

Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətlərdə inqilabi gerçəklikdir. 15 iyun 2021-ci il tarixindən başlayaraq Bakı və Ankara hərbi-siyasi, iqtisadi sahələrdə müttəfiqliklərini rəsmi şəkildə elan etdi. Bəyannamədə diqqəti çəkən ən vacib məqamlardan biri hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Burada qeyd edilir ki, iki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar. Bəyannamədə deyilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır".

Müqavilədə digər vacib məqamlardan biri iqtisadi-nəqliyyat məsələləri ilə bağlıdır. Azərbaycan və Türkiyə arasında imzalanan Bəyannamədə xüsusilə tarixi türk torpağı Zəngəzur dəhlizinin adının hallanması tarixi gerçəkliyi və hədəfləri göstərən mühüm amildir. Bəyannamədə milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi aktual məsələləri yer alır. Sənəddə xüsusilə vurğulanır ki, Türkiyə ilə Azərbaycanı və Azərbaycanın qərbdəki bölgələriylə Naxçıvan Muxtar Respublikasını birləşdirən dəhlizin (Zəngəzur dəhlizi) açılması və onun davamı olaraq Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə əhəmiyyətli dərəcədə kömək edəcək.

Beləliklə, sadalanan mühüm amillərlə yanaşı, sənəddə türk dünyasının gücləndirilməsi, türk həmrəyliyinin möhkəmləndirilməsi, diaspor fəaliyyətinin genişləndirilməsi, eləcə də medianın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı birgə fəaliyyətə dair konkret müddəaların yer alması bu bəyannamənin tarixiliyini və əhəmiyyətini olduqca artırır.

Tam əminliklə deyə bilərik ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı da dünya bir daha bunun şahidi oldu.

**Nigar Şixkərimova,**
**Şirvan şəhər prokurorunun köməkçisi**



# İlin altı ayı uğurla başa çatdı

## *Müsahibimiz Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradovdur*

**- Azərbaycan 2020-ci ilin sınaqlarından zəfərlə çıxdı. Mənfur düşmənin ayaqları altında illərdir inləyən torpaqlarımız azad olundu. Həmin yaşayış məntəqələrimizdə Azərbaycan bayrağı yüksəldi. Sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu təcavüzkar Ermənistanı məğlub edərək işğal siyasətinə son qoydu. Bu savaş Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtləri ilə düşmənin kapitulyasiyası ilə başa çatdı.**

2021-ci ilə yüksək əhval-ruhiyyə, uğurla başlamışıq. Artıq il yarı olub. 6 ayda necə işləmişik?

İlk növbədə deyim ki, uğurlarımız qəlbimizi qürur hissi ilə doldurur. Ötən müddət ərzində Şirvanda İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun rəhbərliyi ilə pandemiyaya qarşı ardıcıl olaraq ciddi kütləvi tədbirlər, dezinfeksiya işləri aparılıb və eyni zamanda genişmiqyaslı quruculuq və abadlıq işləri davam etdirilib. Eyni zamanda şəhid ailələri, Vətən Müharibəsi qazilərinin problemləri də öz həllini tapır. Şirvan Bələdiyyəsi də bu tədbirlərdən kənarda qalmayıb İcra Hakimiyyəti ilə əlbir işləyərək pandemiyaya qarşı mübarizədə öz köməyini əsirgəməyib. Belə ki, ötən müddət ərzində az təminatlı, imkansız ailələrə bələdiyyə öz imkanı daxilində maddi kömək göstərib. Bütün bununla yanaşı Şəhidlər xiyabanının arxa giriş hissəsindəki hasar, su hovuzu, gümbəz, köhnə rənglərdən təmizlənərək yenidən rənglənib. Yaşıllıq sahəsində də xeyli işlər görülüb, kanallar təmizlənib, ağaclara aqrotexniki qulluq edilib.

Vətən muharibəsi qazisi Heydərov Ramil Muğbil oğluna maddi köməklik göstərilib və tikinti materialları ilə təmin olunub. Şəhər sakini Sünbülə Əliyevaya tikinti materialları ilə köməklik edilib. Eyni zamanda şəhid gizir Xəlilov Namiq İlyas oğlunun və Məmmədli Cavid Natiq oğlunun xatirə kompleksinin tikintisinə inşaat materialları verilib.

Şəhər sakini Validə Şıxəliyeva-ya, Şahin Abbasova, Nərminə Alışovaya, Qarabağ əlili Cavanşir Cəfərova və Qarabağ müharibəsi əlili Amil Məmmədova maddi kömək edilmişdir.

Şəhərin S.Zeynalov küçəsi 2 saylı binanın qarşısında tikilməkdə olan Xeyir -Şər yerinin dam örtüyünün düzəldilməsi üçün xüsusi fermalar quraşdırılaraq qoyulmuşdur. Hazırda isə S.Zeynalov küçəsi 17 saylı binanın qarşısında Mənəfli Əli Əflan oğlunun xatirə lövhəsində işlər yekunlaşdırılır.

Hər il olduğu kimi, ötən aylarda da, Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələrindən qanunsuz istifadə olunmasına qarşı da mübarizə aparılmışdır. Belə, ki keçmiş Əmlak Komitəsi yanında Dövlət Reyster Xidmətinin Ərazi İdarəsinin Mülkiyyət Hüquqlarının Qeydiyyatı üzrə verilmiş sənədlər əsasında yaşadıqları həyətlərdən Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələrindən faktiki qanunsuz istifadə edən xeyli şəhər sakini müəyyənləşdirilmiş, onlarla qanunvericiliyin tələblərinə müvafiq maarifləndirmə işləri aparılmış, şəhər sakinlərinə isə sənədləşmə ilə bağlı rəsmi xəbərdarlıq məktubları göndərilmişdir. Görülmüş tədbirlərin və aparılmış qanunamüvafiq izahatların nəticəsi olaraq vətəndaşlar faktiki istifadələrində olan Bələdiyyə mülkiyyətinə məxsus torpaqların sənədləşdirilməsi ilə bağlı Şirvan Bələdiyyəsinə ərizə və müvafiq sənədlər təqdim etməyə başlamışlar.

Bələdiyyə mülkiyyətinə məxsus torpaq sahələri barədə aylıq, rüblük və illik hesabatlar , o cümlədən Bələdiyyənin ehtiyat fondu, Perspektiv inkişaf fondu, ümumi istifadədə olan torpaq sahələri, kənd təsərrüfatına az yararlı və yararsız torpaqlar barədə məlumatları və torpağın növlərinə uyğun istifadə vəziyyətini özündə əks etdirən cədvəl forması hazırlanaraq torpaqların elektron uçot sistemінə daxil edilməsi üçün müvafiq orqanlara təqdim olunmuşdur. Bələdiyyə mülkiyyətində olan torpaq ehtiyatlarından düzgün, təyinatına uyğun istifadə edilməsi, torpaq sahələrinin münbitliyi, ekoloji şəraitin yaxşılaşdırılması, onun zəbt olunması hallarına qarşı tədbirlərin gücləndirilməsi bu sahədə nöqsanların aradan qaldırılması üçün tərəfimizdən daimi reydlər keçirilir və şəhər əhalisi arasında maarifləndirmə işləri aparılır.

**Müsahibəni**
**Rasim Nəhmədov apardı**

# Şəhid Şəhriyar İsmayılzadənin ad günü təntənəli şəkildə qeyd olunub




**Şirvan şəhərində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan şəhidlərimizin doğum və anım günlərində onların ailələrinin, məzarlarının ziyarət olunması artıq ənənə halını alıb. Ənənənin davamı olaraq 7 iyul 2021-ci il tarixdə Vətən müharibəsinin şəhidi İsmayılzadə Şəhriyar Əkbər oğlunun doğum günü qeyd edilib. Şirvan Şəhər İcra Hakimiyyəti başçısı aparatının məsul işçiləri, Hacıqəhrəmanlı Bələdiyyəsinin üzvləri, Gənclər və İdman İdarəsinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları, döyüş yoldaşları, dostları öncə Şəhidlər Xiyabanında Şəhriyarın məzarını ziyarət edərək önünə gül-çiçək dəstələri düzüblər.**

**Şəhidin ruhuna dualar oxunub, valideynlərinə Allahdan səbir dilənib.**

Sonra ziyarətçilər şəhid Şəhriyar İsmayılzadənin Hacıqəhrəmanlı qəsəbəsində yaşadığı evin yaxınlığında xatirə lövhəsinin və guşəsinin açılışında iştirak ediblər. Azərbaycan Respublikasının dövlət himni səsləndirildikdən sonra şəhidin atası Əkbər İsmayılzadə, anası Fatma xanım xatirə lövhəsini açaraq övladlarını cənnətdəki ilk doğum günü münasibətilə təbrik ediblər və tədbir iştirakçılarını salamlayıblar.

Tədbirdə şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva, Hacıqəhrəmanlı bələdiyyəsinin sədri Samirə Abışova, əməkdar müəllim Həsənpaşa Tahirov, tarix müəllimi Töfhə Cəlilova, Hacıqabul şəhidi Şıxəliyev Mehdinin anası, Hacıqəhrəmanlı şəhidi Rahil Ərəblinin anası, şəhidin döyüş yoldaşları 44 günlük Vətən müharibəsini şanlı zəfərlə başa çatdıran şəhidlərimizə Allahdan rəhmət diləyiblər və onları böyüdən valideynlərə minnətdarlıq ediblər. Qeyd olunub ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi və müzəffər ordumuzun qüdrəti ilə qəhrəman oğullarımız sonsuz cəsarət və qəhrəmanlıq göstərərək həyatları bahasına torpaqlarımızı düşməndən azad etmişlər. Üçrəngli bayrağımız respublikamızın bütün guşələrində olduğu kimi, işğaldan azad edilmiş torpaqlarımızda da əzəmətlə dalğalanmaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, Şirvanda da şəhid ailələri və qazilərə diqqət və qayğı göstərilməsinin yüksək səviyyədə təşkil olunması vurğulanıb. Azərbaycan Ordusunun qüdrətindən, şəhidlərimizin döyüş zamanı göstərdiyi qəhrəmanlıqlardan söz açıblar. Vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi ehtirama layiq olduqlarını diqqətə çatdırıblar.

Sonra Şəhriyar İsmayılzadənin keçdiyi döyüş yolundan, Vətən uğrunda göstərdiyi şücaətdən danışılıb. Qeyd olunub ki, 7 iyul 1994-cü ildə dünyaya gələn Şəhriyar İsmayılzadə sadə, zəhmətkeş ailədə böyüyüb. Hacıqəhrəmanlı qəsəbə 12 nömrəli tam orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətini başa vurduqdan sonra ailəsinin yanına qayıdan Şəhriyarı yaxınları, dostları vətənpərvər, mərd, cəsur oğul kimi tanıyıblar. 27 sentyabr 2020-ci il tarixdə II Qarabağ müharibəsi başladıqda könüllü olaraq torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərə qatılıb. Zəngilan, Qubadlı, Füzuli, Şuşa şəhərlərinin alınmasında qəhrəmanacasına döyüşüb. Şuşa uğrunda gedən qanlı döyüşlərdə şəhadətə yüksəlib. 10 noyabr 2020-ci ildə Şirvan şəhər Şəhidlər Xiyabanında izdihamla dəfn olunub. Ölkə başçısının sərəncamı ilə Şəhriyar İsmayılzadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Daha sonra Şəhriyarın vaxtilə təhsil aldığı 12 nömrəli tam orta məktəbin şagirdləri şəhidlərə həsr edilmiş bədii kompazisiya ilə çıxış ediblər.

Tədbirin sonunda xatirə lövhəsinin önünə gül-çiçək dəstələri düzülüb. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə, Birinci vitse-prezident, çox hörmətli Mehriban xanım Əliyevaya və şəhər rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



## 70 YAŞLI QƏLƏM DOSTUMUZU TƏBRİK EDİRİK

**Alik Ağəli oğlu Rzayevi 40 ildən yuxarıdır ki, tanıyıram. Bir idmançı, pedaqoq, yazar, ən əsası isə xeyirxah və nəcib insan kimi. İmkanlı olmasa da imkanlı və sözü keçən adamlarla dil tapıb ehtiyacı olanlara hərtərəfli maddi və mənəvi dayaq olub və mən deyərdim ki, o bu ənənəni bu gün də davam etdirir.**

O, 1951-ci ildə Hacıqabul rayonunun Qarasu kəndində anadan olub. Əli Bayramlı (indiki Şirvan) şəhər 2 nömrəli tam orta məktəbi və pedaqoji məktəbin bədən tərbiyəsi şöbəsini fərqlənmə diplomu ilə bitirib. Daha sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil alıb. Düz 40 il pedaqoji sahədə çalışıb. Müəllim, təşkilatçı, direktor müavini, direktor, Təhsil şöbəsində metodist vəzifələrində çalışıb. Ali kateqoriyalı müəllim, ali kateqoriyalı metodist adına layiq görülüb. Həmin dövrlərdə iki dəfə Şirvan şəhər Təhsil şöbəsi, iki dəfə Şirvan şəhər Bədən Tərbiyəsi və İdman komitəsi, Mədəniyyət və Turizm şöbələri, Peşə liseyi, Hərbi Komissarlıq tərəfindən diplom və fəxri fərmanla təltif edilmişdir.

1969-cu ildən respublika mətbuatında çıxış edir. Yazıları «Azərbaycan gəncləri», «İdman», «İnşaatçı», «Qətiyyət», «Azərbaycan press», «Savalan», «Şərqin səsi», «Elm və Təhsil», «Qarabağ», «Kainat», «Azərbaycan müəllimi», «İŞIQ», «Hacıqabul» və sair qəzetərində dərc olunmuş yazıları oxucular tərəfindən maraqla qarşılanmışdır.

O həmçinin adını çəkdiyim və çəkmədiyim qəzetlərdə ictimai müxbir, bölgə müxbiri, redaktor müavini, redaktor, baş redaktorun müavini vəzifələrində işləmişdir. Təqaüddə olmasına baxmayaraq bu gün də əsl gənclik həvəsi ilə çalışır, yazıb yaradır. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, «Qızıl qələm» və «Araz» ali ədəbi media mükafatı laureatıdır. Müxtəlif qəzet və jurnallarda çap olunmuş 900-dən artıq məqalənin, 48 kitabın müəllifi, 4 toplunun, 3 almanaxın tərtibçisi, 30 kitabın redaktoru və ön söz müəllifidir. İki dəfə AJB-nin diplomu, AJB Muğan bölməsinin fəxri fərmanı ilə təltif edilmişdir.

Alik müəllim haqqında da çox yazılıb, ünvanına xoş sözlər deyilib. Hazırda «Elm və təhsil», «Şərqin səsi» qəzetlərinin bölgə müxbiri və eyni zamanda Şirvan şəhərinin «İŞIQ» qəzetinin də ştatdankənar müxbiridir.

Alik müəllimin bu günlərdə 70 yaşı tamam olur. Əzizləri, dostları, onu tanıyanlar tərəfindən saysız-hesabsız təbriklər ünvanına yollandı. Biz də bütün təbriklərə qoşulur, qələm dostumuz Alik Rzayevə sağlamlıq, yeni-yeni uğurlar arzulayırıq.

**Musaxan HEYDƏRLİ,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

### Vətən müharibəsinin şəhidi

# ARZUSU QƏLƏBƏ ÇALMAQ İDİ

**Şirvan şəhərindəki M.Osmanov adına 20 nömrəli tam orta məktəbin 2018-ci il məzunu, Amal Seyfəddin oğlu Alışanlının sinif rəhbəri, mənəvi anası, məktəbin rus dili və ədəbiyyatı müəllimi Hicran Qasımova ilə müsahibəmizdə Amalın keçdiyi şərəfli yollarına birlikdə nəzər saldıq. H. Qasımova bildirdi ki; Birinci Qarabağ müharibəsi illərində məktəbimiz bir məzununu şəhid vermişdi. İllər sonrası daha iki məzunumuz şəhidlik zirvəsinə ucaldı. Həmin şəhidlərdən biri də məktəbimizin 2018-ci il məzunu Amal Alışanlı oldu.**

Amal Alışanlı məktəbimizin sevimli şağirdlərimdən idi. 2001-ci il fevraln 11-də Yardımlı rayonunun Qabaqdibi qəsəbəsində dünyaya göz açan Amal, bir yaşından valideynləri ilə birlikdə köçüb Şirvanda yaşayırdı. 2007-ci ildə A. Alişanlı, Şirvan şəhər M.Osmanov adına tam orta məktəbin birinci sinfinə daxil oldu. On bir il 20 nömrəli məktəbdə təhsil alan A. Alışanlı, dərslərini yaxşı oxuyurdu, O, nizam-intizamlı, ünsiyyətcil, olduqca mehriban bir şagird idi. Amal təhsil aldığı bu on bir il müddətində öz elcanlılığı, vətənpərvərliyi ilə fərqlənərdi. 2018-ci tədris ilində rəhbərlik etdiyim sinfin məzunu olan A.Alışanlı ailəsinə dəstək üçün müxtəlif sahələrdə çalışırdı. Zəhmətə bağlı valideynlərindən aldığı tərbiyə Amalın hərbi xidməti dövründə də özünü büruzə verirdi. 2019-cu ilin aprelində ŞIrvan şəhər Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsindən hərbi xidmətə çağırılan Amal Alışanlı Gəncə şəhərindəki "N" saylı hərbi hissədə xidmət edirdi. Bir neçə aydan sonra isə O, Xüsusi Təyinatlı Dəstədə xidmət etmək üçün Çəlilabad rayonunun Göytəpə sərhəd zastavasına göndərildi. Hərbi xidməti dövründə bacarıqlı, eyni zamanda nümunəvi bir əsgər olaraq komandirlərinin hörmətini qazanan Amal Alışanlı Xüsusi Təyinatlıların təlim məşqlərində, hərbi biliklərə yiyələndi. Məqsədi hərbi xidmətdən tərxis olunduqdan sonra, Azərbaycan Silahlı Qüvvələrinin tərkibində qalmaq, Vətənə ləyaqətlə Müddətdən Artıq xidmət etmək, habelə döyüş taktikalarının sirrlərinə mükəmməl yiyələnmək idi. Amalın hərbi xidmətini başa çatdırmasına bir neçə gün qalırdı. Ölkədə başlanan Vətən müharibəsi onun cəbhəyə yollanmasına, erməni terrorçuları ilə mübarizə aparmasına səbəb oldu. Anası Heyranə xanımla son dəfə 2020-ci il sentyabr ayının 25-də telefonla danışan Amal ondan xeyir-dua istədi. Bu onun ailəsi ilə sonuncu əlaqəsi oldu.

Müsahibim Hicran Qasımova söhbətinə davam edib daha sonra dedi ki, Amalın ilk döyüş yolları Füzuli rayonundan başlayib. Cəsarətlə döyüşərək, düşmən tapdağından azad edilən torpaqlarla irəliləyən Amal qəddar erməni qüvvələri ilə son ana qədər döyüşüb. O, keşməkeşli döyüş yollarını Cəbrayıl rayonuna qədər davam etdirib. Cəsurluğunu düşmənlə mübarizəsində bir daha isbat edən Amal 2020-ci ilin 2 oktyabr tarixində xalqını, millətini Qarabağa aparan yollarda- Cəbrayılın düşmən işğalından azad edilməsi uğrunda gedən müharibədə qəhrəmancasına şəhid olub.

Müəllim, sinif rəhbəri, həm də mənəvi ana olan H.Qasımova daha sonra dedi: - Amal haqqında danışmaq mənim üçün həm kədərli, həm də qürurvericidir. Kədərlidir ona ğörə ki, Amalın həyata keçməyən çox arzuları var idi! Qürurvericidir ona ğörə ki, Amal Azərbaycanın Qarabağa qovuşması ugrunda, qarı düşmənlə mübarizə apararkən şücaətlər göstərərək qəhrəmancasına şəhid




oldu! Amal indi təkcə Heyranə xanımın və Seyfəddin Alışanovların övladı deyil, bütün şirvanlıların, Azərbaycanın övladıdır! O təkcə qardaşı Kamalin deyil, həm də bütün şirvanlıların qardaşıdır!

Müsahibəmizdə iştirak edən Şirvan şəhər M.Qsmanov adına 20 nömrəli tam orta məktəbin təşkilatçı müəllimi Ərəstun Qasımovun dedikləri:

20 nömrəli məktəbin şəhid məzunu Amal Alışanlının xatirəsi məktəbimizdə şagirdlərimiz və müəllim kollektivimiz tərəfindən tez-tez yad edilir. Bunu da bildirmək istərdim ki, şəhid məzunumuzun cənazəsi valideynlərinin istəyi ilə doğulduğu Yardımlı rayonunun Qabaqdibi qəsəbə qəbiristanlığında ehtiramla dəfn edilib. Lakin Amal bizim yaddaşımızda və xatirələrimizdə, hətta məzunlarımızın sıralarında bu gün də mənən yaşamaqdadır! Biz, şəhid məzunumuz A.Alışanlını heç vaxt unutmayacağıq, xatirəsini yad edəcəyik. Vətən müharibəsində qəhrəmanlıqla şəhid olan Amal Alışanlı həmişə bizimlə olacaq. Bəli, hərbi xidmətdən yaşadığı Şirvan şəhərinə deyil, birbaşa cəbhəyə yollanan Amalın arzusu düşmən üzərində qələbə çalmaq, mənfur erməniləri məğlub etmək, bayrağımızı uca zirvələrə taxmaq idi! Ürəyi düşmən gülləlşəriylə susdurulan Amalın silahdaşları onun bu arzularını gercəkləşdirdilər, rəşadətli Azərbaycan ordusunun hərbiçiləri düşməni məğlub etdi! Qalib ordumuzun şəhidi Amal Seyfəddin oğlu Alışanlının qanı yerdə qalmadı.

Yazılanlardan sonra;

Amal Alışanlı ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 2020-ci ilin 4 oktyabr tarixində "Cəbrayıl uğrunda", 17 oktyabrda "Füzuli uğrunda", 2020-ci ilin 15 dekabr tarixində isə "Vətən ugrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Yeri cənnət olsun.

**HƏMİDƏ FAZİLQIZI.**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

*Düşünməyə dəyər*

# GƏLİN SAĞLAMLIĞI MƏHDUD İNSANLARDAN QAÇMAYAQ

**Mənim xarici görünüşümdə fiziki qüsur var. Bunu bilirəm. Amma fiziki qüsurlu olmağıma baxmayaraq ağlımda, düşüncələrimdə qüsur yoxdur və təvözökarlıqdan kənar olsa da deyim ki, ağlım bəzi insanların ağlından yaxşıdır. Mən qüsurlu insanlara gülmürəm və onlardan qaçmıram. İmkanım daxilində əl tuturam, yardım edirəm.**

Mən sevinirəm ki, narkoman yox, qüsurluyam. Narkoman olub evdə puldan ötrü ata-anaya əl qaldırmaqdansa, narkoman olub çöllərdə yatmaqdansa qüsurlu olmaq yaxşıdır. Baxın, mənim ağlım olmasaydı sizcə mən tək Bakıya, digər yerlərə gedib qayıda bilərdim? Əlbəttə ki, yox! Ya yolu azardım, ya da maşın vurardı məni. Demək istəyirəm ki, özümü idarə edə bilirəm. Bakıda olarkən bir neçə nəfər qıza, oğlana, yaşlı insana yaxınlaşdım. Onlar mənimlə elə davrandılar ki, yaşamağa həvəsim artdı. Hətta bir qardaş mənim yol pulumu vermək istədi. Mən isə göstərdiyi qayğı və hörmətə görə təşəkkür etdim, razılığımı bildirdim üzərimdə lazımi qədər pul olduğunu söylədim. Dedim ki, çatışmayan yalnız bəzən insanların mənimlə ünsiyyətdə olmaq istəməmələridir. Sağ olun ki, siz bunu məndən əsirgəmədiniz.

Təəssüf ki, şəhərimizdə eyni məqsədlə (insanların fikirlərini öyrənmək məqsədilə) bir neçə xanıma yaxınlaşdım. Onlar mənə cavab vermək əvəzinə yollarını dəyişib uzaqlaşdılar. Bu barədə fikir mübadiləsi etdiyim insanlar mənə dedilər ki, belələrin qınama. Rastlaşdığın qızların düşüncə tərzi hələ inkişaf etməyib. Həm də bütün qızlar, oğlanlar belə deyil. Həmsöhbətimə dedim ki, bəs niyə sağlam, yaxşı görünüşlü oğlan görən kimi bu qızlar onlara cavab verirlər? Yəni demək istəyirəm ki, qüsurlu insanların görünüşünə baxmayaraq onlara yardım etmək lazımdır. Bəlkə yolu tanımır azıb, bəlkə qonaq gəlib ünvan soruşur. Bəlkə də bank, yaxud digər idarələrin ünvanını soruşur. O zaman siz qaçacaqsınız? Bu heç də düzgün hərəkət deyil.

Mən çox vaxt yolüstü şəhərimizdəki kollecin yanından keçirəm. Bəzi qızlar mənə baxıb gülürlər. Böyüklərdən üzr istəyirəm, qızlar elə bilir ki, mən onlara başqa məqsədlər üçün yaxınlaşıram. Yox! Mən ünsiyyət qurub, fikir mübadiləsi etmək istəyirəm. Hər yerdə olduğu, kimi şəhərimizdə də qüsurlu insanlar var və o qüsurlu olsa da geyimini, davranışını çox gözəl bilir, ağlı yerindədir. Bəli, fiziki olaraq görünüşü qüsurludur, lakin ağlı çox gözəl işləyir.

Yəni insanı idarə edən ağlıdır, görünüş deyil. Bu gün çoxları kimi qüsurlu olmağımdan utanıb gizlənsəm, cəmiyyətdən uzaqlaşsam bu məni uçuruma aparar. Mən sadəcə cəmiyyət üçün faydalı gənc olmağa çalışıram. Heç nəyə baxmayaraq! Yaradan məni bu cür yaradıb. Məsləhət onundur. Sizlərə isə o qalır ki, imkan daxilində hər kəsə əl tutun. Xüsusi ilə fiziki cəhətdən qüsurlu olanların buna ehtiyacları var. Gəlin bir kəlmə xoş sözü bir-birimizdən əsirgəməyək. Fiziki cəhətdən qüsurlu insanlara xüsusi diqqət göstərək.

**Fərid MƏCİDOV,**
**şəhər sakini**

# BÖYÜK HƏDƏFLƏRƏ DOĞRU



**Şəhərimizin ən qocaman təhsil ocaqlarından biri olan S.Hüseynov adına 1nömrəli tam orta məktəbdə aparılan düzgün və konkret hədəflərə istiqamətlənmiş təlim-tərbiyə prosesi, eləcə də xüsusi istedadlı uşaqların üzə çıxarılması, onların potensial inkişafına yönəlmiş addımlar, görülən işlər öz müsbət nəticələrini verməkdədir. Məhz görülmüş düzgün və məqsədyönlü işlərin nəticəsidir ki, 2019-2020-ci tədris ilində 1 nömrəli tam orta məktəb Təhsil Nazirliyi tərəfindən təhsilin dinamik inkişaf etdiyi məktəb kimi qiymətləndirilmişdir. Son on il ərzində məktəbdə təhsilin, təlim-tərbiyənin düzgün aparılması yönündə konkret hədəflərə istiqamətlənmiş addımlar sayəsində bu gün məktəbimiz şəhər ümumtəhsil müəssisələri arasında ən yaxşı məktəb statusunu qazanmışdır.**

Yola saldığımız 2020-2021-ci tədris ili məktəbimiz üçün bir sıra uğurlarla yadda qaldı. Məlum Covid-19 pandemiyası ilə bağlı xüsusi karantin rejiminin yaratdığı məhdudiyyətlərə baxmayaraq 1 nömrəli tam orta məktəb bütün göstəricilər üzrə şəhərimizin lider məktəbinə çevrildi.

Şagirdlərimizin Respublika Fənn Olimpiadasında 1 qızıl və 1 gümüş medala, Respublika Fənn Müsabiqəsində 1 qızıl medala layiq görülməsi böyük hədəflərə doğru atılan ən böyük addım oldu. Belə ki, məktəbin 11-ci sinif şagirdi Quliyeva Samirə Murad qızı Azərbaycan dili və ədəbiyyat fənni üzrə respublika fənn olimpiadasının final turunun qalibi olaraq qızıl medala layiq görülmüş və adını Respublika ümumtəhsil məktəbliləri arasında 5 qızıl medalçı sırasına yazdırdı. Məktəbimizin X lisey sinif şagirdi Aytən Ələkbərova kimya fənni üzrə Respublika Fənn Olimpiadasının qalibi olaraq gümüş medala layiq görüldü. Onu da qeyd etməliyik ki, bundan başqa şagirdimizin kimya fənnə olan xüsusi marağı onun bu fənn üzrə böyük nailiyyətlər qazanmasına səbəb olmuşdur. 2019-cu ildə Aytən kimya fənni üzrə fənn müsabiqəsində respublika üzrə

3-cü yeri qazanmışdır. Respublika üzrə “Polyup” müsabiqəsində 10-cu siniflər üzrə “kimya” fənni üzrə 5-ci yerə layiq görülmüşdür. Məktəbin daha bir istedadlı şagirdi Eldar Məmmədzadə isə kimya fənni üzrə Respublika fənn müsabiqəsinin final mərhələsinin qalibi olaraq qızıl medala layiq görüldü.

Bu uğurların davamı olaraq Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən 2020-2021-ci tədris ilində ümumtəhsil məktəb şagirdləri arasında “Ən Yaxşı Təqdimat” müsabiqəsində məktəbimizin 10-lisey sinif şagirdi Cavad Mahmudlu hazırladığı “Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur” mövzusunda nümunəvi təqdimatı ilə şəhər üzrə birinci yerə çıxaraq növbəti mərhələdə adını respublika üzrə QALİBLƏR sırasına yazdırdı.

Azərbaycan Respublikası Prezidentinin “Görkəmli elm xadimi Lütfi zadənin 100 illiyinin qeyd olunması haqqında” 25 yanvar 2021-cil tarixli sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədi ilə Təhsil Nazirliyi və AMEA tərəfindən hazırlanmış Birgə Tədbirlər Planında ümumtəhsil müəssisələrində təhsil alan 5 -ci sinif şagirdləri arasında keçirilən məntiq olimpiadasında məktəbimizin 8 nəfər şagirdi olimpiadanın final mərhələsində qalib gələrək böyük uğura imza atdı. Təhsil Nazirliyinin təşkilatçılığı və “Kapital Bank”ın dəstəyi ilə “Ağıllı şəhər-Bakı” layihəsi çərçivəsində keçirilən “Nə? Harada? Nə zaman?” intellektual respublika müsabiqəsində məktəbimizin 9-cu siniflərdən ibarət “Moon light” komandası respublikanın ən güclü komandalarına qalib gələrək 1-ci yerə çıxmış və Təhsil Nazirliyinin təsis etdiyi



Respublika Kubokunun sahibi olmuşdur. Bu nailiyyət sonradan məktəbimiz üçün bir ənənəyə çevrildi və ardıcıl olaraq məktəbin sözügedən komandası 3 dəfə birinci yerə sahib olmuşdur. Həmçinin məktəbin 7-ci sinif üzrə təşkil olunmuş “Minus” komandası, 3 dəfə ardıcıl olaraq “Nə? Harada? Nə zaman?” intellektual yarışında respublika üzrə 2-ci və 3-cü yerlərə layiq görülmüşdür.

“Nizami Gəncəvi ili”nə həsr olunmuş



Modelləşdirmə müsabiqəsində məktəbimizin informatika sahəsi üzrə xüsusi istedadı ilə seçilən fəal şagirdi Cavid Dadaşzadə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin təşkil etdiyi Modelləşdirmə müsabiqəsinin yekun nəticəsinə əsasən “Xüsusi Jüri Mükafatı “ ilə təltif olunmuşdur.

Şəhər Təhsil şöbəsi və İcra Hakimiyyətinin təşkilatçılığı ilə 15 iyun “Milli Qurtuluş günü” münasibəti ilə ümumtəhsil məktəblərinin 5-11-ci sinif şagirdləri arasında “Heydər Əliyev müasir Azərbaycan qurucusu və memarıdır” mövzusunda inşa müsabiqəsində məktəbin daha bir istedadlı şagirdi Jalə Məmmədzadə 2-ci yerə layiq görülmüşdür.

Şirvan Gənclər Evi SXM-nin təşkilatçılığı ilə yeniyetmə və gənclərin dünyagörüşünün inkişafı, intellektual biliklərin artırılması məsədi ilə şəhər üzrə VI-IX sinif şagirdləri arasında keçirilən onlayn intellektual bilik yarışında məktəbimizin 9-cu sinif şagirdləri yüksək səviyyədə intellektual bacarıq göstərək qalib gəlmişdir. Günel Günəşli və Səbinə Günəşli I yerə, Fidan Hüseynova isə III yerə layiq görülmüşdür.

Şirvan şəhər Təhsil şöbəsinin və Şirvan şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə müdrik siyasətçi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü ilə əlaqədar məktəblilər arasında “Heydər Əliyev - Azərbaycan gənclərinin ilham mənbəyidir” mövzusunda esse yazı müsabiqəsində məktəbimizin istedadlı şagirdi Günel Şıxalıyeva birinci yerə layiq görülmüşdür. Daha bir istedadlı şagirdimiz Selcan Quliyeva Nizami Gəncəvi ili ilə əlaqədar “ Nizaminin Sirrlər xəzinəsi” adlı onlayn inşa-yazı müsabiqəsində I yerə layiq görülmüşdür.

Məktəb həmçinin tədris sahəsində də uğurlara imza ataraq böyük hədəflərə doğru irəliləyir. Tədrisin keyfiyyətinin yüksəldilməsi və inkişafına göstərilən diqqətin və həssas yanaşmanın nəticəsidir ki, yola saldığımız tədris ilində məktəbi 1 nəfər şagirdi “Qızıl və ya Gümüş” nişanla təltif edilmiş, ümumi orta təhsil səviyyəsi üzrə 4 nəfər şagird, tam orta təhsil səviyyəsi üzrə isə 2 nəfər şagird Fərqlənmə attestatına layiq görülmüşdür. Əlbəttə burada şagird faktoru başlıca rol oynasa da nəzərə çarpılacaq ən vacib amillərdən biri də məktəbin peşəkar kadr potensialının olmasıdır. Təhsil Nazirliyi tərəfindən keçirilən Müəllimlərin işə qəbulu müsabiqəsindən yüksək nəticələrlə keçən, öz işinə hər zaman məsuliyyətlə, tələbkarlıqla yanaşan müəllimlər hər bir şagirdin qazandığı nailiyyətlərə öz töhfələrini vermişlər. Belə fədakar müəllimlərdən Şəmsiyyə Əsgərova - Azərbaycan dili və ədəbiyyat, Günel İsmayılova- kimya, Sərxan Almasov – riyaziyyat, Hafis Vəliyev- riyaziyyat, Aygün Əsgərova– informatika və b. adlarını çəkmək olar. Belə müəllimlərin fəaliyyəti hər zaman məktəb rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir.

Saymaqla bitməyən bu və ya digər uğurlar bir daha onu göstərir ki,1 nömrəli məktəbin laynız bir hədəfi var – Yüksək keyfiyyətli təhsili ilə hər zaman liderlik mövqeyində qalmaq. Bu hədəfə nail olmaq üçün məktəbimiz son on ildə böyük uğur yolu keçmişdir.

Özünün 100 illik yubileyini qeyd etmək ərəfəsində olan qocaman məktəb qazandığı uğurları ilə bütün hədəflərinə çataraq nəinki Şirvan şəhərində, respublikamızın digər ümumtəhsil məktəbləri arasında öz liderliyini təsdiqləyəcəkdir.

**Rəfiqə Rzayeva,**
**Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəbin direktoru**

---

**Moskvada yaşayıb işləyəndə, Bakıda çalışanda da bayramlarda, xüsusilə Mətbuat Günündə Nizami qardaşımızdan ya təbrik teleqramı alar, ya da telefon vasitəsi ilə xoş sözlər eşidərdik. Bəzən fikirləşirdim ki, artıq neçə illərdir ki, o qəzetdən ayrılıb, yazı-pozu ilə də məşğul olmur. İndi onun öz işi, öz qayğıları var. Fürsət tapıb keçmiş həmkarlarını təbrik etməyə onu hansı hisslər məcbur edib. Axı, elə yoldaşlarımız olub ki, «yaxşı», «yağlı» (özlərinin dedikləri ifadələrdir) yer tapıb redaksiyadan gedəndən sonra «köhnə ocaqlarını» və bizləri unudublar.**

# DOSTUMUZU İTİRDİK



Nizami Rəhimov diqqətinin, Nizami Rəhimov səmimiyyətinin səbəblərini öyrənmək üçün o qədər də baş sındırmağa ehtiyac olmayıb. Bu hisslər Nizami Rəhimova ata tərbiyəsindən, ana öyüdündən irəli gəlib. Bir də ki, təxminən 20 ilə yaxın «İŞIQ»da çalışan, sonradan müxtəlif səbəblərdən redakisiyadan uzaqlaşan Nizami jurnalist peşəsini ürəkdən sevmişdi, ona ürəkdən bağlanmışdı. Kollektivi sevmişdi.

Ötən ilin 22 iyul Milli Mətbuat Gününü xatırlayıram. Bizləri yenə də ilk təbrik edən Nizami Rəhimov oldu. Hətta vaxtilə redaksiyada çalışmış, hazırda təqaüddə olan keçmiş çiyin yoldaşımızın da birinin telefon nömrəsini soruşdu. Dedi ki, kiçiyin böyüyü (yaşca nəzərdə tuturdu) arayıb-axtarıb təbrik etməsi olduqca vacibdir. Özü də bu bayram günündə.

Nizami qardaşımız olduqca şən, zarafatcıl yoldaş idi. Ən problemli hadisə ilə rastlaşanda belə, soyuqqanlı olur, məsələnin, necə deyərlər, davasız-savaşız başa çatmasına nail olurdu.

Redaksiya kollektivinin mənafeyi onun mənafeyi idi. O bizimlə birgə çalışdığı illərdə qəzetimizdə, indikindən fərqli olaraq, çoxlu tənqidi yazılar dərc olunurdu. Təbii ki, bəziləri haqlı tənqidi qəbul etmək istəmirdi. Redaksiyaya gələr, bizdən «haqq-hesab» tələb etmək istəyirdi. Nizami Rəhimov belə vaxtda qarşıya çıxar, həmin şəxsi tutarlı faktlar, rəqəmlərlə elə sakitləşdirərdi ki, onun daha redaktora müraciət etməsinə ehtiyac olmazdı.

Diqqətli oxucu yəqin hiss etdi ki, mən bu yazıda tez-tez «qardaşımız Nizami» ifadəsini tez-tez işlətdim. Doğrudan da o bizim üçün peşəkar, səriştəli jurnalist, həm də kiçik qardaş idi.

Bu söz həm də uzun illər «İŞIQ» qəzetinə rəhbərlik etmiş Əməkdar jurnalist mərhum Möhsüm Xəlilovun sözləri idi. O deyirdi ki, redaksiya elə bir kollektivdir ki, burada gərək əhval-ruhiyyə yüksək olsun. Nizami kimi şən, hazırcavab əməkdaşlara ehtiyacımız böyükdür. Əslinə qalsa Nizami bizim kiçik qardaşımızdır. ..

Bu gün Nizami Rəhimov haqqında keçmiş zamanda danışmaq mənim üçün, onu yaxından tanıyanlar üçün olduqca çətindir. Peşəkar jurrnalist, (o indiki Bakı Dövlət Univesitetinin jurnalistika fakültəsinin məzunu idi) təxminən 20 ilə yaxın bir yerdə çalışdığımız N.Rəhimov başqa sahələrdə çalışanda da (o şəhər Bələdiyyəsi sədrinin müavini, son illərdə Şirvan şəhər İcra Hakimiyyəti başçısının Bayramlı qəsəbəsi üzrə nümayəndəsi idi) ruhən, qəlbən bağlandığı mətbuat aləmindən uzaqlaşmamışdı. Ürəyi redaksiya ilə döyünürdü, desəm yanılmaram. Qəzetimizi izləyər, yaxşı yazılar, onu qane etməyən məqalələr barədə fikrini söyləyirdi.

Amansız xəstəlik Nizami qardaşımızı aramızdan apardı. Amansız ölüm Nizami sevərləri-dostlarını çox kədərləndirdi. Onun dostları isə çoxdur. Lap çox. Sadalasaq uzun bir siyahı alınar. Amma məncə Nizami itgisi ən çox 2 dostunu - xəstə anlarında da onu tək qoymayan, imkanları daxilində hər cür kömək göstərən Nizami Cəlalbəylini və Əlqənbər Azadovu kədərləndirdi.

Allah rəhmət eləsin!

**F.RƏHİMOV**

---

## «İŞIQ»- 2021
## ƏZİZ OXUCULAR!

Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a 2021-ci ilin 2-ci yarısı üçün abunə yazılışı davam edir.
6 aylıq abunə haqqı 14 manatdır.
«İşıq»a 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

## ETIBARSIZDIR

Əli Bayramlı şəhər «Kür» firmasının möhürü və ştampı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

«İŞIQ» qəzeti redaksiyasının kollektivi redaksiyanın sabiq əməkdaşı

**NİZAMİ MİRƏLİ OĞLU RƏHİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə, əzizlərinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650